**Yüksək səviyyəli panel**

**COP29: İqlim dəyişmələri kontekstində insanların yerdəyişməsi üçün inteqrə olunmuş həll yolları üzrə qlobal əməkdaşlığın gücləndirilməsi**

*Tarix: 18 noyabr 2024-cü il*
*Vaxt: 15:30-16:30*
*Yer: Baku stadionu, Mavi Zona, Zona E, Azərbaycan Pavilyonu, 1-ci konfrans otağı*
*İşçi dil: İngilis dili*

## Konsepsiya sənədi

### 1. Əsaslandırma

Son illər iqlim dəyişmələrinin mənfi nəticələri miqrasiyaya daha çox təsir edir və bu tendensiyanın daha da artacağı istisna edilmir. İqlim dəyişmələri insanların yerdəyişməsinin yeganə səbəbi olmasa da, getdikcə bu prosesin əhəmiyyətli hissəsinə çevrilməkdədir. İqlim dəyişmələrinin təsirləri bütün dünyada temperaturun artması, yağıntıların dəyişkənliyi, istilik dalğaları, quraqlıq, meşə yanğınları və buzlaqların əriməsi şəklində baş verir. Bu da öz növbəsində insanların yaşayışına, o cümlədən ərzaq və su təhlükəsizliyinə təsirlərini göstərməkdədir. 2023-cü ildə təbii fəlakətlər təqribən 26,4 milyon insanın öz ölkələri daxilində köçməsinə səbəb olmuşdur və ilin sonunda 7,7 milyon insan hələ də köçkünlük vəziyyətində yaşamışdır.

Hazırda miqrasiya, ətraf mühit və iqlim dəyişmələri arasında mürəkkəb əlaqənin kollektiv şəkildə dərk edilməsi məsələsi, miqrasiya etmək niyyətində olan və iqlim dəyişmələri səbəbindən artıq miqrasiya etmiş insanlar üçün həll yollarının müəyyən edilməsi üçün birgə tədbirlərin görülməsi, bu istiqamətdə dialoqun təşviqi, habelə bu mövzuya xüsusi diqqətin ayrılması beynəlxalq gündəmdə mühüm yer tutur. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına, Davamlı İnkişaf üzrə 2030 Gündəliyinə, Təhlükəsiz, nizamlı və qanuni miqrasiya üzrə Qlobal Pakta və digər əlaqəli beynəlxalq sənədlərə uyğun olaraq iqlim dəyişmələri kontekstində insanların yerdəyişməsi üzrə mövcud siyasətlərin daha da təkmilləşdirilməsinə ehtiyac vardır.

Buna görə də, 2024-cü il BMT İqlim Dəyişmələri Konfransı (UNFCCC COP29) zamanı Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Beynəlxalq Miqrasiya Təşkilatının birgə təşkilatçılığı ilə "COP29: İqlim dəyişmələri kontekstində insanların yerdəyişməsi üçün inteqrə olunmuş həll yolları üzrə qlobal əməkdaşlığın gücləndirilməsi" mövzusunda yüksək səviyyəli panel təşkil olunacaqdır. Panel müzakirələri miqrasiya, ətraf mühit və iqlim dəyişmələri arasındakı əlaqəyə diqqət yetirərək, iqlim dəyişmələri kontekstində insan yerdəyişməsinin

çoxşaxəli problemlərini həll etmək üçün inteqrə olunmuş həllərin işlənib hazırlanması üçün qlobal əməkdaşlığı gücləndirəcəkdir.

2. **Məqsəd**

COP29 çərçivəsində keçiriləcək Panel müzakirələri iqlim dəyişmələrinin miqrasiya proseslərinə təsiri ilə bağlı müvafiq maraqlı tərəflərin məlumatlılığının artırılması, həmçinin hökumətlər, beynəlxalq təşkilatlar, QHT-lər və özəl sektor arasında qlobal səviyyədə bu mövzuda dialoqun təşviq edilməsi imkanı yaradacaqdır. Tədbir iqlimlə əlaqəli insanların yerdəyişməsinin hərəkətverici amillərini və nəticələrini həll edən inklüziv və vahid strategiyaların müəyyənləşdirilməsi və təşviq edilməsi, təsirə məruz qalmış icmaların dəstəklənməsi və davamlılığı artırmaq üçün effektiv tövsiyələrin formalaşdırılması məqsədi daşıyacaqdır.

**3. Müzakirə üçün suallar**

Müzakirələr aşağıdakı suallar ərtafında aparılacaqdır:

- İqlim dəyişmələri müxtəlif regionlarda insanların yerdəyişməsi modellərinə necə təsir göstərmişdir və iqlimlə bağlı insanların yerdəyişməsində yaranan tendensiyalar və gələcək ssenarilər hansılardır?
- İqlimlə bağlı insanların yerdəyişməsinə dair mövcud siyasət çərçivəsinin güclü və zəif tərəfləri hansılardır və onlar iqlim dəyişmələri üzrə beynəlxalq sənədlərə nə dərəcədə inteqrasiya olunmuşdur və ya uyğunlaşdırılmışdır?
- İqlim dəyişmələrinin insanların yerdəyişməsinə mənfi təsirlərinin qarşısını almaq və minimuma endirmək üçün beynəlxalq əməkdaşlıq necə gücləndirilə bilər? Daha inklüziv və hərtərəfli həllərin hazırlanması üçün hökumətlər, QHT-lər və beynəlxalq təşkilatlar arasında tərəfdaşlıq necə gücləndirilə bilər?
- İqlimlə bağlı yerdəyişmənin daha yaxşı idarə edilməsi üçün  etməyə ölkələrə kömək edə biləcək ən yaxşı təcrübələrin və inteqrasiya olunmuş yanaşmaların uğurlu nümunələri hansılardır?
- Bu Panel müzakirələrində verilən tövsiyələrinin effektiv şəkildə həyata keçirilməsini necə təmin edə bilərik?